Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 10 ” mart tarixli
74 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## İnzibati cərimələrin qaytarılması

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – Məcəllə) 150.17-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və artıq ödənilmiş, düzgün tətbiq edilməmiş və ya səhv ödənilmiş inzibati cərimələrin (müvafiq olaraq hesablanmış dəbbə pulu daxil olmaqla) (bundan sonra – artıq ödəmənin) qaytarılması qaydasını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **artıq ödənilmiş inzibati cərimə** – inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarlarda (elektron qərarlarda), o cümlədən elektron protokollarda nəzərdə tutulmuş məbləğdən artıq dövlət büdcəsinə və (və ya) inzibati cərimə növündə inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmiş səlahiyyətli orqanların hesablarına ödənilmiş vəsait;

1.2.2. **düzgün tətbiq edilməmiş inzibati cərimə** – inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarların (elektron qərarların) şikayət və ya protest əsasında ləğv edilməsi və ya dəyişdirilməsi nəticəsində qaytarılmalı olan ödənilmiş inzibati cərimə;

1.2.3. **səhv ödənilmiş inzibati cərimə** – təyinatı inzibati cərimə olmayan, lakin benefisiar və büdcə təsnifat kodu üzrə rekvizitlərin səhv göstərilməsi nəticəsində inzibati cərimə kimi dövlət büdcəsinə və (və ya) inzibati cərimə növündə inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmək səlahiyyəti olan orqanların hesablarına daxil olan vəsait, habelə barəsində inzibati icraat aparılmayan şəxsin adından ödənilmiş inzibati cərimə.

1.3. Bu Qaydada istifadə olunan digər anlayışlar Məcəllə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

### 2. Artıq ödəmənin qaytarılması halları

2.1. Ödənilmiş inzibati cərimə aşağıdakı hallarda dövlət büdcəsindən və (və ya) inzibati cərimə növündə inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmiş səlahiyyətli orqanların hesablarından qismən və ya tamamilə qaytarılır:

2.1.1. inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarlarda (elektron qərarlarda), o cümlədən elektron protokollarda nəzərdə tutulmuş miqdardan artıq inzibati cərimə ödənildikdə;

2.1.2. inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarlar (elektron qərarlar) şikayət və ya protest əsasında ləğv edildikdə və ya dəyişdirildikdə (inzibati cərimə əvvəlcədən ödənildiyi halda);

2.1.3. təyinatı inzibati cərimə olmayan, lakin benefisiar və büdcə təsnifat kodu üzrə rekvizitlərin səhv göstərilməsi nəticəsində dövlət büdcəsinə və (və ya) inzibati cərimə növündə inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmək səlahiyyəti olan orqanların hesablarına inzibati cərimə kimi daxil olduqda;

2.1.4. inzibati cərimə barəsində inzibati icraat aparılmayan şəxsin adından ödənildikdə.

2.2. Bu Qaydanın 2.1.1-ci və 2.1.2-ci (inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarlar (elektron qərarlar) şikayət və ya protest əsasında dəyişdirilərək aşağı məbləğdə inzibati cərimənin tətbiq edilməsinə münasibətdə) yarımbəndlərində nəzərdə tutulmuş hallarda inzibati cərimənin artıq ödənilmiş hissəsi geri qaytarılır.

## 3. Artıq ödəmənin qaytarılması müddətləri

3.1. Artıq ödəmə barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin və ya inzibati cərimə ödəyən digər şəxsin yazılı və ya elektron müraciətinə əsasən 20 (iyirmi) gün müddətində qaytarılır.

3.2. İnzibati cərimənin qaytarılması ilə bağlı məhkəmə qərarı qanunvericiliyə uyğun icra edilir.

3.3. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və ya inzibati cərimə ödəyən digər şəxs artıq ödəmənin qaytarılmasını inzibati cərimənin ödənildiyi tarixdən 5 (beş) il müddətində tələb etmək hüququna malikdir.

## 4. Artıq ödəmənin qaytarılması üçün müraciətin qaydası

4.1. Artıq ödəmənin qaytarılması üçün barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs inzibati xəta haqqında protokol (elektron protokol) və (və ya) inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə barədə qərar (elektron qərar) qəbul etmiş orqana (vəzifəli şəxsə), inzibati cərimə ödəyən digər şəxs isə vəsaitin dövlət büdcəsinə daxil olduğu hallarda müvafiq maliyyə orqanına, vəsaitin inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmiş səlahiyyətli orqanın hesabına daxil olduğu hallarda

isə həmin orqana bu Qaydanın 1 nömrəli əlavəsində göstərilmiş formada ərizə ilə müraciət etməlidir.

4.2. Ərizədə aşağıdakı məlumatlar göstərilməlidir:

4.2.1. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və ya inzibati cərimə ödəyən digər şəxs haqqında məlumat (fiziki və ya vəzifəli şəxslərin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşadığı və olduğu yerin ünvanı, əcnəbilərə münasibətdə doğum tarixi və vətəndaşlığı, hüquqi şəxsin adı, VÖEN-i, hüquqi və faktiki ünvanları);

4.2.2. ərizə təqdim edilən orqanın (vəzifəli şəxsin) tam adı;

4.2.3. inzibati xəta haqqında protokolun (elektron protokolun) tarixi və nömrəsi (olduğu halda);

4.2.4. inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın (elektron qərarın) tarixi və nömrəsi (olduğu halda);

4.2.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan Məcəllənin müvafiq maddəsi (olduğu halda);

4.2.6. artıq ödəmənin məbləği;

4.2.7. artıq ödəmənin yaranma tarixi və səbəbləri;

4.2.8. artıq ödəmənin qaytarılmalı olduğu şəxsin bank rekvizitləri.

4.3. Ərizə təqdim edilən orqan (vəzifəli şəxs) ərizəyə daxil olduğu gündən 10 (on) gün müddətində baxmalıdır.

4.4. Ərizə təqdim edilən orqan (vəzifəli şəxs) tərəfindən bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulmuş halların olub-olmaması araşdırılmalı və olduğu təqdirdə artıq ödəmənin qaytarılması barədə bu Qaydanın 2 nömrəli əlavəsində göstərilmiş formada rəy tərtib edilməlidir. Tərtib edilmiş rəy bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş ərizə ilə birlikdə müvafiq xəzinədarlıq orqanına təqdim edilməlidir.

4.5. Bu Qaydanın 4.4-cü bəndinə əsasən araşdırma zamanı artıq ödəmənin qaytarılmalı olduğu halların mövcud olmadığı aşkar edildikdə, bu barədə ərizə təqdim edilən orqan (vəzifəli şəxs) tərəfindən müvafiq qərar qəbul edilməli və müraciət edən şəxsə 5 (beş) gün müddətində əsaslandırılmış yazılı məlumat təqdim edilməlidir.

4.6. Bu Qaydanın 4.5-ci bəndinə əsasən ərizə təqdim edilən orqan (vəzifəli şəxs) tərəfindən qəbul edilmiş qərardan inzibati qaydada və ya məhkəmə qaydasında şikayət verilə bilər.

## 5. Artıq ödəmənin qaytarılması üzrə xəzinədarlıq orqanlarının hərəkətləri

5.1. Xəzinədarlıq orqanları bu Qaydanın 4.4-cü bəndinə əsasən təqdim edilmiş sənədləri qəbul edirlər və 10 (on) gün müddətində baxırlar.

5.2. Xəzinədarlıq orqanları təqdim edilmiş sənədlərdə uyğunsuzluq aşkar etdikdə, sənədləri 5 (beş) gün müddətində rəy tərtib edən orqana qaytarırlar. Təqdim edilmiş

sənədlərdə uyğunsuzluq aşkar edilmədikdə, artıq ödəmənin nağdsız qaydada qaytarılmasını təmin etməlidirlər.

5.3. Bu Qaydanın 5.2-ci bəndinə əsasən sənədlər qaytarıldıqda rəy tərtib edən orqan bu Qaydanın 4.6-cı bəndinə uyğun olaraq müraciət edən şəxsə məlumat verməlidir.

5.4. Xəzinədarlıq orqanları tərəfindən rəy tərtib edən orqana artıq ödəmənin qaytarıldığı barədə 5 (beş) gün müddətində məlumat verilir.

5.5. Artıq ödəmənin dövlət büdcəsinə və (və ya) inzibati cərimə növündə inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmiş səlahiyyətli orqanların hesablarına daxil olmasından asılı olaraq dövlət büdcəsinin və ya müvafiq hesabın mədaxili artıq ödəmənin faktiki qaytarılmış məbləği qədər azaldılır.

"İnzibati cərimələrin qaytarılması
Qaydası"na
**1 nömrəli əlavə**

| |
|---|
| **Artıq ödənilmiş, düzgün tətbiq edilməmiş və səhv ödənilmiş inzibati cərimələrin qaytarılması barədə**<br><br>**Ə R İ Z Ə** |
| |
| |
| (ərizə təqdim edilən orqanın (vəzifəli şəxsin) tam adı) |
| |
| |
| |
| |
| (ərizə tərtib edən şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, vətəndaşlığı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşadığı və olduğu yerin ünvanı, hüquqi şəxs olduqda adı, VÖEN-i, hüquqi və faktiki ünvanları) |
| |
| Artıq ödənilmiş, düzgün tətbiq edilməmiş və səhv ödənilmiş inzibati cərimənin qaytarılması xahiş edilir: |
| |
| |
| |
| |
| (artıq ödəmənin məbləği, ödənilmə tarixi, yaranma səbəbi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi (olduğu halda), inzibati xəta haqqında protokolun (elektron protokolun) tarixi və nömrəsi, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın (elektron qərarın) tarixi və nömrəsi) |
| |
| |
| Artıq ödəmənin qaytarılmalı olduğu şəxsin bank rekvizitləri |
| |
| |
| (bankın adı, bankın kodu, bankın müxbir hesabı, VÖEN-i və hesab nömrəsi) |

| | |
|---|---|
| | |
| | |

| | |
|---|---|
| ______________ | __________________ |
| (imza) | (tarix) |
| | |
| M.Y. | |

“İnzibati cərimələrin qaytarılması
Qaydası”na
**2 nömrəli əlavə**

**Artıq ödənilmiş, düzgün tətbiq edilməmiş və səhv ödənilmiş inzibati cərimələrin qaytarılması barədə**

**RƏY**

| | |
|---|---|
| Rəy tərtib edən orqanın adı və VÖEN-i | |
| Ərizə tərtib edən şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşadığı və olduğu yerin ünvanı, əcnəbilərə münasibətdə doğum tarixi və vətəndaşlığı, hüquqi şəxs olduqda adı, VÖEN-i, hüquqi və faktiki ünvanları | |

Ərizə tərtib edən şəxsin “____” _________ 20____ il tarixinə aşağıdakı məbləğlərdə qaytarılmalı olan artıq ödəməsi yaranmışdır:

| Artıq ödəmənin vahid büdcə təsnifatına görə adı | Artıq ödəmənin maddə və yarımmaddə səviyyəsində vahid büdcə təsnifatına görə kodu | Artıq ödəmənin məbləği (rəqəmlə və sözlə, manatla) | Artıq ödəmənin yaranma dövrü (il, rüb, ay, gün) | Artıq ödəmənin yaranma səbəbi |
|---|---|---|---|---|
| | | | | |

Artıq ödəmə şəxsin ________________________________________

(bankın adı, bankın kodu, bankın müxbir hesabı, VÖEN-i və hesab nömrəsi)

hesabına qaytarılmalıdır

_________________________________rəhbəri və ya onun müavini

(rəy tərtib edən orqanın adı)

______________________________________________________________________

(imzası, soyadı, adı və atasının adı)

| |
|---|
| M.Y. |
| |
| Rəyin tarixi “___” ____________ 20____ il |
| Rəyin nömrəsi № _______________ |